# Xocalı soyqırımı–unudulmaz faciə

## O gün gələcək

***Xocalı faciəsi zamanı erməni vəhşiləri tərəfindən gözləri önündə atası məhv edilən bir qızın dediklərindən.***

Öldürmə atamı qaniçən gavur,
Nə tətik sənindi, nə barmaq sənin.
Kişisən qurşaq tut, öz gücünlə dur,
Hələ tükənməyib mərdi Vətənin.
Qurşaq tut, gör necə bərəlir gözün,
İndi yad gücüylə vuran anındı.
Araba altında ləhləyən köpək
Kölgə sənin deyil, arabanındı.
«Qisas qiyamətə qalmaz»—deyiblər,
Sinəni parçalar dəmir biləklər.
Zibil yığnağı tək sizi təmizlər
Bizim tərəflərdən əsən küləklər.
Düşünmə pisliklər unudulacaq,
Zənn etmə səbrlər tükənməyəcək.
Qalib olmayıbdır nahaq heç zaman,
Ölkəm bütövləşər, o gün gələcək.

**Mehrəli MEHRƏLİYEV,**
**Bum qəsəbəsi.**

## Göz dağımız Xocalı

Yağıların hiyləsinə tuş gəldi,
Alovlandı, məşəl oldu Xocalı.
Nalə, cağrış səmalara yüksəldi,
Qızılgültək açdı, soldu Xocalı.
İmdad dedi, haray verən olmadı,
Dağıtdılar daş-daş üstə qalmadı,
Vicdansızlar baxıb ibrət almadı,
Qeyrətliyə göz dağıdır Xocalı.
Var üstündə bölüşdülər dünyanı,
Hanı, o əvvəlki cah-cəlal hanı?
Torpağın üstündə şəhidin qanı
Çoxaldıqca dərya oldu Xocalı.
Gələr bir gün şəfəq düşər üzünə,
Dünya qulaq asar haqqın sözünə.
Neştər kimi batıb düşmən gözünə
Varlığını sübut edər Xocalı.
Bu matəmin ağır yükü belində,
Kədər, qüssə yuva salıb dilimdə.
Fəxrəddin də şəhidlərin selində
Sənə qurban olmaq istər, Xocalı!..

**Fəxrəddin BABAYEV,**
**Tüntül kənd tam orta məktəbin müəllimi.**

## Olmazmış zülmün qədəri

Tikmişdik, görmədik bəhəri,
Olmazmış zülmün qədəri,
Gülləylə biçdilər şəhəri,
Tapmadı qaçmağa macal,
Xocalı.
Ah-nalə alınmadı gecə,
Silahsız el qorunsun necə?
Zülm ərşə dirəndi o gecə,
Əl qaldı Tanrıya ucalı,
Xocalı.
O gecə qan axıb çay oldu,
Arxalı köpəklər bay oldu,
Xocalı Xatına tay oldu,
Qırıldı cavanlı-qocalı,
Xocalı.
Milləti qoydular yan üstə,
Dərisin soydular can üstə.
Ey xalqım, sən qana qan istə!
Bir yetməz bir elin acalı,
Xocalı!.. Xocalı!.. Xocalı!..

**Əhməd MƏMMƏDLİ,**
**Nic qəsəbəsi, müəllim**

## Xocalı harayı

V. Qəhrəmanov adına Qəbələ şəhər 1 saylı tam orta məktəbdə Xocalı soyqırımı ilə əlaqədar tədbir keçirilmişdir.



Tədbirdə məktəbin müəllimləri və yuxarı sinif şagirdləri iştirak edirdilər. Tədbiri giriş sözü ilə məktəbin direktor müavini N. Zeynalova açdı. O, erməni lobbilərinin mənfur hərəkətləri ilə xalqımızın başına gətirdiyi müsibətləri qeyd etdi. Sonra məktəbin tarix müəllimi E. Əsədova çıxış edərək bir daha vurğuladı ki, erməni işğalçıları özlərinin iyrənc, ağlasığmaz hərəkətlərini bütün dünyaya tanıtdılar. Xalqımız bu vəhşiliyi unutmur, ermənilərin cəzalanmalarını Allahdan diləyirlər. Sonda IX «b» sinif şagirdlərinin hazırladığı «Xocalı harayı» adlı faciəvi səhnəcik canlandırıldı.

## Faktlar və rəqəmlərlə

eŞəhər əhalisi 7 min nəfər olmuşdur.

eAmansız şəkildə qətlə yetirilib—613 nəfər,

O cümlədən—106 nəfəri qadın, 63 nəfəri uşaq və ahıllar idi.

eŞikəst edilib—487 nəfər.

eƏsir alınıb—1.225 nəfər.

eBütünlüklə məhv edilən ailələrin sayı—8.

eHər iki valideynini itirən uşaqlar—24.

eValideynlərindən birini itirən uşaqlar—130.

eDiri-diri yandırılanlar—56.

Bunlardan əlavə ermənilər başəriyyətlə bir araya gəlməyən, insanlığa sığmayan, vəhşilik baxımından analoqu olmayan xüsusi qəddarlığa yol verərək insanların üzlərinin dərisini soymuş, başlarını kəsmiş, körpələrin gözlərini çıxarmış, hamilə qadınların qarınlarını süngü ilə yırtmış və sair iyrənc işgəncələrə əl atmışlar.

## Dığalara qalmaz obam, elim oyy!..

Bir çətinə, bir bərkə düşən təki,
Çağırırıq Koroğlunu, Babəki,
Səsimizə səs verə onlar təki,
Çağırmaqdan qabar olub dilim oyy!..
Dığalara qalan obam, elim oyy!..
Dünyamızın gözəl vaxtı, düz vaxtı
Uçurtdular başımıza tac-taxtı.
Görəm, Allah niyə bizə kəm baxdı?
Açmaz olan çiçəyim oyy, gülüm oyy!..
Dığalara qalan obam, elim oyy!..
Nə danışım, danışmağa sözmü var?
İsinməyə ocaqmı var, közmü var?
Yaxşı-pisi doğru seçən gözmü var?
Üzülübdü hər tərəfdən əlim oyy!..
Dığalara qalan obam, elim oyy!..
Kim deyərdi əsir olar Qarabağ,
Yağılara yesir olar Qarabağ,
Sinəmizə çəkilibdi neçə dağ.
Əsməz olan küləyim oyy, yelim oy!..
Dığalara qalan obam, elim oyy!..
Sən fələyin oynuna bax, oynuna,
Bala həsrət qalıb ana qoynuna.
Günahını kim alacaq boynuna?
Yaman yerdə sındı mənim belim oyy!..
Dığalara qalan obam, elim oyy!..
Gücümüzü göstərməsək yağıya,
Alacaqlar bir gün bizi lağıya.
Hansı üznən baxacağıq doğruya?
Qara gələn həftəm, ayım, ilim oyy!..
Dığalara qalan obam, elim oyy!..
Ay Komradlı, yenə güneş doğacaq,
Sel-suların əvvəlki tək axacaq,
Azərbaycan zəfər zəngi çalacaq,
Yerdə qalmaz bu müsibət, zülüm oyy!..
Dığalara qalmaz obam, elim oyy!..

## Bax

Qarabağ deyəndə töküb göz yaşın,
Hönkürüb uşaq tək ağlayana bax.
Əyib sinəsinə əyilməz başın,
Ah çəkib ürəklər dağlayana bax.
Qovulub vətəndə doğma vətəndən,
İnsan da olarmış vətənsizə tən.
Vətən həsrətindən, yurd həsrətindən.
Başına qaralar bağlayana bax.
Əldən gedən obam, elim deyərək
Sızlayır acıdan nə qədər ürək.
Ömrün baharında qoca palıd tək,
Qopub öz kökündən laxlayana bax.
Dərdini dərd bilib Cəlil, ellərin,
Şahidi olmusan bir gör nələrin.
O, qanlı-qadalı qara günlərin
Yaşını hələ də saxlayana bax.

**Cəlil KOMRADLI.**

## Tarixə qanla yazılmış səhifə

Xocalı soyqırımının 23-cü ildönümü T. Yaqubov adına Bum qəsəbə tam orta məktəbində geniş şəkildə qeyd edilmişdir. Bu münasibətlə məktəbdə tədbirlər planı hazırlanmışdır. Tədbiri direktor müavini Kifayət Rəşidova açmış, sözü tarix müəllimi Mamilə İsrəfilovaya vermişdir. O, Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış Xocalı soyqırımının törədilməsindən, ermənilərin vəhşiliklərindən geniş şəkildə söhbət açmışdır. Sonra VIII a sinif şagirdi Rəna Həsənova öz ürək sözlərini söyləmiş, ermənilərin xalqımıza qarşı kütləvi qırğın törətdiyini bildirmişdir. Xoclı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra IX «a» sinif şagirdləri Kəmalə Alıcanova, Günel Hacıyeva, VIII «a» sinif şagirdi Aygün Əhmədova, VII «b» sinif şagirdi Firuzə Yaqubova, V sinif şagirdləri Qənirə Rəşidova, Aysu Kərimova Xocalı soyqırımına həsr edilmiş şeirlər söyləmişlər.

Fevral ayının 25-də məktəbdə ilk dərslər Xocalı soyqırımına həsr edilmişdir. Məktəbdə bu münasibətlə fotostend də hazırlanmışdır.

**Emin BAORATOĞLU.**

## Haqqa, ədalətə çağırış

Xalqımızın qan yaddaşında «unudulmaz izlər buraxmış səhifələrdən biri də XX əsrin böyük faciəsi Xocalı faciəsidir. İki gün öncə faciədən 23 il keçdi. Azərbaycanımızın hər yerində olduğu kimi həmin gün Vəndam qəsəbə sənətkarlıq evində də xalqın qan yaddaşında silinməz izlər buraxmış faciə qurbanlarının xatirəsini yad etmək üçün tədbir keçirildi.

Tədbir sənətkarlıq evinin direktoru Azər Azayevin çıxışı ilə başladı. Sonra Vəndam qəsəbə 1 saylı orta məktəbin tarix müəllimi Rəşad ermənilərin dinc Xocalı əhalisinə qarşı törətdityi qanlı vəhşiliklərdən danışdı. Bu hadisələr erməni cəlladlarına qarşı nifrət hissi doğurdu.

Tədbirdə sənətkarlıq evinin bədii rəhbəri Elşən Salehov faciə ilə əlaqədar iştirakçılara məlumatlar çatırdı. Vəndam qəsəbə inzibati ərazi nümayəndəsinin müavini Azad Xitilov, YAP qəsəbə ilk təşkilatının sədri Sadıq Sadıqov, şəhid ataları Naib Sadıqov, Zahid Abdullayev çıxışlarında Xocalı faciəsinin ermənilərin törətdiyi misli görünməyən ən dəhşətli faciə olduğunu bildirdilər.

Vəndam qəsəbə 1 saylı tam orta məktəbin şagirdləri Fərid Salehli, Əzəmət Mehdiyev, İsmayıl Məlikov Xocalı soyqırımına aid şeirlər söylədilər.

Sonda tədbir din xadimi Seyidağa Həmidovun Xocalı soyqırımı qurbanlarının ruhuna Qurani-Kərimdən ayələr oxuması ilə başa çatdı.

**«Qəbələ».**

## Görünməmiş faciə

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində "Xocalı fəryadı" adlı tarixin qara səhifələrini özündə əks etdirən tədbir hazırlanmışdır. Azərbaycan tarixində görünməmiş faciə olan Xocalı soyqırımı haqqında təkcə tarixi məlumatlarla deyil,həmin hadisəni əks etdirən foto-materiallar,tarixi kitablar vasitəsilə hər bir tamaşaçıya məlumat verilir.Tədbiri giriş sözü ilə muzeyin direktoru Xalis Məmmədov açdı. O müdhiş gecənin dəhşətləri haqqında geniş söhbət açdı. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Muzeyin kiçik elmi işçisi İlhamə Seyidova "Xocalı fəryadı" mövzusunda tarixi faktlarla məlumat verdi.